Shape the future
with confidence

Aprel 2026-cı il

# Hüquq və vergi məsələləri üzrə bülleten

Azərbaycan Respublikası qanunvericiliyində baş vermiş dəyişikliklərə dair yenilənmiş bələdçi




Bu buraxılışda aşağıdakı məsələlərin icmalını diqqətinizə çatdırmaq istərdik:

- Konstitusiya Məhkəməsinin Qərarı: vergi borclarına görə ölkədən çıxış məhdudiyyətinin xarici hüquqi şəxslərin filial/nümayəndəlik rəhbərlərinə də tətbiq olunması
- Şəxsin Yüksəkixtisaslı Miqrant hesab olunmasının Qiymətləndirilməsi Meyarlarına Dəyişikliklər
- Yerin təkindən istifadə sahəsində fəaliyyətin təkmilləşdirilməsinə dair Fərman

## Konstitusiya Məhkəməsinin Qərarı: vergi borclarına görə ölkədən çıxış məhdudiyyətinin xarici hüquqi şəxslərin filial/nümayəndəlik rəhbərlərinə də tətbiq olunması

*31 mart 2026-cı il tarixində Azərbaycan Respublikası Konstitusiyasının 73-cü maddəsinin tələbləri baxımından Azərbaycan Respublikası Vergi Məcəlləsinin 23.1.15-3-cü və Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 355-5.1-ci maddələrində nəzərdə tutulan "hüquqi şəxsin icra orqanının rəhbəri" anlayışının şərh edilməsinə dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı ("Qərar") qəbul edilib.*

Qərar, vergi borclarının mövcudluğu ilə əlaqədar ölkədən çıxış hüququna tətbiq edilən müvəqqəti məhdudiyyətlər kontekstində praktiki baxımdan mühüm əhəmiyyət kəsb edir. Belə ki, Qərar "hüquqi şəxsin icra orqanının rəhbəri" anlayışına daha geniş şərh verir. Bu aydınlaşdırmadan əvvəl müvafiq normaların mətnində vergi ödəyicisi olan şəxslərə və/və ya hüquqi şəxslərin icra orqanının rəhbərlərinə istinad edilməsi təcrübədə müxtəlif yanaşmaların formalaşmasına səbəb olmuş, xüsusən də ölkədən çıxışa məhdudiyyət tətbiq edilməsi məqsədilə "hüquqi şəxs" anlayışının necə tətbiq olunması məsələsi üzrə fərqli təfsirlər yaranmışdır.

Konstitusiya Məhkəməsinin verdiyi şərhdən sonra Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin rəhbərləri də həmin müddəaların tətbiqi dairəsinə düşürlər. Nəticə etibarilə, vergilər, məcburi dövlət sosial sığorta haqları, icbari tibbi sığorta haqları və işsizlikdən sığorta haqları üzrə borclar mövcud olduqda, məhkəmə qərarı əsasında onların ölkədən çıxış hüququ müvəqqəti olaraq məhdudlaşdırıla bilər.

Qərar 11 aprel 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Şəxsin Yüksəkixtisaslı Miqrant Hesab olunmasının Qiymətləndirilməsi Meyarlarına Dəyişikliklər

*06 aprel 2026-cı il tarixində* “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi Qaydası”nın və “Şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarları”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 3 aprel 2025-ci il tarixli, 99 nömrəli Qərarında dəyişiklik edilməsi barədə Qərar (“Dəyişikliklər”) Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən qəbul edilmişdir.

Dəyişikliklərə əsasən, şəxsin mütəxəssis olduğu sahədə təcrübəsi üzrə qiymətləndirilmə aparılarkən verilə biləcək balın yuxarı həddi 35 baldan 55 baladək artırılmışdır. Qeyd edək ki, hazırda 55 bal ayrıca siyahıda göstərilməyən təhsil meyarını da əhatə edir.

Şəxsin ölkənin sosial-iqtisadi inkişaf istiqamətləri ilə uyğunluğu, maliyyə təminatı və daxili əmək bazarına müsbət təsiri üzrə bal hədləri sabit saxlanılmışdır.

Dəyişikliklər 17 aprel 2026-cı il tarixində qüvvəyə minmişdir.

## Yerin təkindən istifadə sahəsində fəaliyyətin təkmilləşdirilməsinə dair Fərman

*20 aprel 2026-cı il tarixində “Yerin təkindən istifadə sahəsində fəaliyyətin təkmilləşdirilməsinə (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) dair” Azərbaycan Respublikası Prezidentinin Fərmanı (“Fərman”) qəbul edilmişdir.*

Fərmana əsasən, yerin təkindən istifadə sahəsində (neft-qaz sahəsi üzrə fəaliyyət istisna olmaqla) aşağıdakı proseslər 1 avqust 2027-cı ildən etibarən “Rəqəmsal ekologiya” informasiya sistemi vasitəsilə “bir pəncərə” prinsipi əsasında həyata keçiriləcəkdir:

- yer təkindən istifadə hüququnun verilməsi;
- yer təki sahələrinin dövlət ekspertizasının aparılması;
- yer təki istifadəçiləri tərəfindən hesabatların təqdim edilməsi;
- yer təkinin istifadəyə verilməsi üzrə aidiyyəti dövlət orqanlarından rəylərin, habelə torpaq mülkiyyətçilərinin və istifadəçilərinin yazılı razılıqlarının alınması;
- hərraclara (auksion və müsabiqə) dair sənədlərin qəbulu və onların keçirilməsi zamanı torpaqların kateqoriyalara aid edilməsi, kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi və digər əlaqəli proseslər.

Fərman 20 aprel 2026-cı il tarixindən qüvvəyə minmişdir.

Əlaqə üçün:

Biz hazırkı icmalın sizin üçün faydalı olmasına ümid edirik. Daha ətraflı məlumat üçün aşağıdakı mütəxəssislər ilə əlaqə saxlamağınız xahiş olunur:



Arzu Hacıyeva
Partnyor, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
arzu.hajiyeva@az.ey.com



Məmməd Balacanov
Direktor, Hüquq xidmətinin rəhbəri, Vergi və hüquq xidmətləri
Tel: +994 (12) 490 7020
mammad.balajanov@az.ey.com

EY | Daha yaxşı iş dünyasını qururuq

EY şirkəti, müştərilərə, əməkdaşlara, cəmiyyətə və planetimizə yeni faydalar təqdim etməklə və kapital bazarlarına inamı artırmaqla daha yaxşı iş dünyasını qurmağa çalışır.

Geniş məlumat bazası, süni intellekt və qabaqcıl texnologiyaların dəstəyi ilə əməkdaşlarımız müştərilərə gələcəyə inamla addımlamağa, bu günün və sabahın ən mühüm məsələlərinin həll yollarını tapmağa kömək edir.

EY şirkətinin mütəxəssisləri audit, konsaltinq, vergi, strategiya və əməliyyatlar daxil olmaqla fərqli sahələrdə çeşidli xidmətlər göstərirlər. Sənaye təcrübəsindən, qlobal miqyasda inteqrasiya olunmuş, multidissiplinar şəbəkədən və vahid ekosistemdə çalışan fərqli tərəfdaşlarımızın köməyindən faydalanaraq biz 150-dən çox ölkə və ərazilərdə xidmətlər təklif edirik.

Biz birlikdə gələcəyi formalaşdırmaq missiyamızı inamla yerinə yetiririk.

EY adı, hər biri müstəqil hüquqi şəxs olan Ernst & Young Qlobal Limited qlobal şirkətlər şəbəkəsinin bir və ya daha çox üzvünə aiddir. Ernst & Young Global Limited, üzvlərinin zəmanətləri ilə məhdudlaşan Böyük Britaniya şirkəti olaraq, müştərilərə xidmət göstərmir. EY şirkəti tərəfindən fərdi məlumatların toplanması və istifadə edilməsinə dair məlumatlar, habelə məlumatların qorunması haqqında qanunvericiliyə uyğun olaraq fiziki şəxslərin hüquqları ey.com/privacy səhifəsində təqdim edilir. EY firmaları yerli qanunlarla qadağan olunduğu ərazilərdə hüquq xidmətləri göstərmir. Daha ətraflı məlumat almaq üçün buraya müraciət edə bilərsiniz: ey.com

© 2026-cı il Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.
Bütün hüquqlar qorunur.

Hazırkı nəşr yalnız məlumat məqsədilə hazırlanıb və uçot, vergi, hüquqi və ya digər peşəkar məsləhətin əvəzi kimi nəzərdə tutulmur. Konkret məsləhətlər almaq üçün məsləhətçilərə müraciət edin.

ey.com/az